# Uşağın şəxsi və psixi inkişafında emosiyaların rolu

**Səriyyə İsazadə**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** emosiya, emosional sfera, emosional uğursuzluq, həyəcan, hissiyyat
**Ключевые слова:** эмоция, эмоциональная сфера, эмоциональная неудача, волнение, чувства
**Key words:** emotion, emotional sphere, emotional failure, excitement, sense

Uşağın şəxsi və psixi inkişafında emosional sferanın inkişafı xüsusi əhəmiyyətə malikdir. Emosiyalar uşağın davranışında, onun fəaliyyətində, ətraf aləmə münasibətində, həmçinin insanlara və insanın özünə münasibətdə mühüm komponentlərdən biridir.

Fransız sözü olub həyəcan mənasını verən "emosiya" öz subyektiv çaları ilə aydın ifadə olunmuş bütün hissiyyat və həyəcan növlərini əhatə edən daxili və xarici qıcıqlandırıcıların təsirinə insanların reaksiyasıdır. Emosiyalar orqanizmin ayrı-ayrı tələbatı ilə əlaqədardır. Tez sönən, uzunmüddət davam edən emosiyalar adamların ali sosial tələbatı ilə yaranır. Emosiyaların inkişafının ali səviyyəsi davamlı hisslərdir. İnsanlar öz hisslərini emosiyalar formasında yaşayırlar. Emosiyalar insan təcrübəsinin hissi fundamenti hesab olunur. Onlar ətraf aləmlə, cəmiyyətlə qarşılıqlı münasibətləri zənginləşdirir.

A.V.Zaporojes, M.Patter və s. alimlərin apardıqları tədqiqatlar sübut edir ki, uşağın orqanizmi emosional təminata həmişə tələbat hiss edir. Emosiyaların xarakteri insanın sağlamlığına təsir edir, onun həyati tonusunu, ətrafdakılara münasibəti müəyyən edir. Rus psixoloqlarından: A.Pavlova, E.Stanskaya, N.Mençinskaya N.Aksarina körpəlik və ilk uşaqlıq dövründə uşaqlarda emosional vəziyyətlərin öyrənilməsi məqsədilə xüsusi tədqiqatlar aparmış və bir sıra konkret nəticələrə gəlmişlər.

Müsbət emosiyaların təsiri nəticəsində həyəcanlılığın səviyyəsi aşağı düşür, müxtəlif funksional sistemlərdə normal işi təmin edir. A.N.Zaporoyes, Y.Z.Neveroviç qeyd edirlər ki, emosiyalar uşağın fəaliyyətinin spesifik tənzimedicisidir. Onlar fəaliyyəti həm təşkil edib aktivləşdirə bilər, həm də onu dayandira bilərlər.

A.N.Zaporoyes, Y.Z.Neveroviçin fikrincə,emosiyalar davranışın motivi ilə sıx surətdə bağlıdır. Onlar davranışın emosional korreksiyasının köməyi ilə tənzimlənir, uşağın maraq və tələbatlarını təmin edir, onun dəyər yönəlişliyinin reallaşmasını şərtləndirir. A.N.Leontyevin fikrincə, emosiya və hisslər psixi proseslərin xüsusi dərəcəsi olub spesifik psixi fəaliyyətdir.

Emosiyalar uşağın həyati münasibətlər sistemində yaranmasını və inkişafını, onun şəxsiyyətini, inkişafıbıb ayrı-ayrı mərhələlərini, habelə bütünlükdə həyati mövqeyini, sosial tələbat və motivlərin formalaşmasını qəbul edir. Fəaliyyətin sosial məzmunununuşaq tərəfindən mənimsənilməsi onun başqa insanlarla emosional vəziyyəti və emosional həssaslığının yüksək səviyyəsinin formalaşması ilə bağlıdır.

Xarixi ölkə psixoloqlarının tədqiqatlarında emosiyaların dilinin inkişaf probleminə xüsusi diqqət yetirilmişdir. Xarici ölkə mütəxəssisləri tərəfindən emosiyaların dilinin inkişaf

problemi çox hallarda başqalarının emosional vəziyyətinin kifayət qədər təcrid olunması baxımından araşdırılır.

Psixoloqlar tərəfindən emosiyaların dilinin inkişafına təsir edən faktorlar nəzərdən keçirilmiş, habelə emosiyaların lüğəti mənasının uşaq tərəfindən uğurlu mənimsənilməsinə təsir göstərən amillər öyrənilmişdir.

V.Ceyms emosiyanı hiss etməyə "cəhd" kimi müəyyən etmişdir. P.K.Anoxinə görə isə emosiyalar orqanizmin fizioloji vəziyyəti olaraq parlar subyektiv ifadəyə malikdirlər və insanın bütün hiss və yaşantılarını əhatə edirlər. S.L.Rubinşteyn emosiyaları subyektin vəziyyətinin və obyektə münasibətinin təzahürü kimi dəyərləndirmişdir.

Rus psixoloqu E.Q.Babinovanın tədqiqatları müəyyən etmişdir ki, həyatının birinci ilində uşaqlarda qeydə alınmış emosional təzahürlərin 72%-i yaşlılarla ünsiyyət fəaliyyəti ilə bağlıdır. Onların böyük əksəriyyəti, yəni 80%-i müsbət emosiyalardan ibarətdir (4, səh.173).

Emosiyalara aid tədqiqatlarda ekspressiv komponentin öyrənilməsinə xüsusi əhəmiyyət verilir. Emosiyaların bir çox növləri var. Onlardan bəzilərinə qısaca nəzər salaq. *Ehtiras* - uzunmüddətli, qüvvətli və dərin hissdir. *Təəccüb* - qəfil dəyişiklik zamanı əsəb sisteminin indiki an üçün uyğun olmayan və adapdasiyaya mane ola biləcək aktivliyini saxlayır Maraq hər bir şeyə istiqamətlənə bilər, lakin insanlığa daha çox fayda verən intellektual, estetik və başqa yaradıcı fəaliyyət növləridir.

*Affekt* – (lat. Affektus - həyəcanlanma deməkdir) coşğun surətdə əmələ gəlib, kəskin ifadəyə malik olan qüvvətli cərəyan edən qısa müddətli hissdir.

*Frustrasiya* – insanın real və ya xəyali maneələrlə rastlaşdığı zamanı düşdüyü psixi vəziyyətdir. Emosional halətlər içərisində stress tədqiqatçıların diqqətini xüsusi olaraq çəkən hadisədir (4, səh.124).

Məktəbəqədər yaşlı uşaqlarda emosional sahənin inkişaf etdirilməsi üçün uşaqla mütəmadi olaraq ünsiyyət qurmaq lazımdır. Beləki, onlar istər valideynləri, istərsə də həm yaşıdları ilə ünsiyyət prosesinə girdikdə ona qarşı müəyyən emosiyalar hiss etməyə başlayırlar. Artıq bu dövrdən etibarən onlar kimi sevdiklərini, kimi bəyənmədiklərini, kimlə oynamaq istədiklərini və s halları ayıra bilirlər. Bu ailədə də aydın sezilir. Belə ki, ailə daxilində müəyyən insanlar qrupuna (qonaqlar, qohumlar və s) hər birinə bir cür emosional reaksiya verirlər. Kiminsə gəlişinə sevinir, kiminsə gəlişi ni heç gözləmirlər də.

Bu dövrdə məktəbəqədər yaşlı uşaqlarda insanlara qarşı müəyyən yaxşı münasibət formalaşdırmaq lazımdır. Bu dövrdə uşaqlara empatiya hissini aşılamaq çox vacibdir. Çox müəlliflər uşaqlarda empatiya hissinin yaranmasını 1,5-2 yaşa aid edirlər. Bu dövrlərdə uşaq müəyyən qədər qəmgin insanları, xüsusən də həmyaşıd uşaqları "sakitləşdirməyə" çalışır və adətən həmin şəxsə müəyyən bir şirniyyat məhsulu və ya öz oyuncağını təqdim edir və düşünür ki, o, ona kömək etdi.

Empatiya hissinin üç komponentini xüsusi vurğulayırlar: 1) Koqnitiv (mən bilirəm ki, şəxsin düşdüyü konkret situasiyada o, nə hiss edir). 2) Emosional (mən ona həmdərdəm). 3) Davranış (mən şəxsin vəziyyətini yaxşılaşdırmaq üçün müəyyən davranış reaksiyaları edirəm). Real həyatda bu üç komponent qarşılıqlı şəkildə çıxış edir. Sadaladığımız empatiya komponentlərini bilərək, uşaqda onu digər insanlara qarşı inkişaf etdirmək olar. Çünki emosiyaların yaranması elə kiməsə qarşı olan hisslərdən yaranır və inkişaf edir.

Son zamanlar uşaqlarda psixo-emosional inkişafın pozulması hallarına tez-tez rast gəlinir. Bunlara misal kimiemosional dəyanətsizlik, düşmənçilik hissi, aqressivlik, narahatlıq, həyəcanlılıq və s. göstərmək olar. Bu halların baş verməsinin nəticəsində uşaqlar ətrafdakılar ilə münasibət qurmaqda çətinlik çəkirlər. Televiziya, kompyüter uşaqlarda valideynlərlə,

həmyaşıdlar ilə bir növ ünsiyyəti əvəz etdiyi üçün, bu cür uşaqlarda ünsiyyət çatışmamazlığı və eyni zamanda “emosiya kasadlığı” baş verir. Bu da bildiimiz kimi uşaqlarda emosiyaların, hisslərin normal inkişafına mənfi təsir göstərir.

Müasir uşaqlar əvvəlkilərinə nisbətən ətrafdakı insanlara qarşı daha soyuq, “hissiz” münasibət bəsləyirlər. K.İzard qeyd edirdi ki, “emosiyalar- qavrayış, təfəkkür və fəaliyyəti təşkil edir”. Uşaqların tərbiyə edilməsi zamanı müsbət emosiyaların və eyni zamanda uşaqda çatışmayan emosiyaların korreksiya edilməsi əsas məsələlərdən biridir (5, səh.138).

Uşaqlarda emosiyaların inkişaf etdirilməsində ən yaxşı vasitə kimi musiqini götürmək olar. Çünki musiqi vasitəsi ilə insanın daxilinə, onun emosional durumuna təsir etmək asan olur. Buna görə də, musiqi mədəniyyəti şəxsiyyətin bir çox strukturunun (hiss mədəniyyəti, emosional sahə və s) inkişaf etdirilməsində əvəzsiz rol oynayır. Emosiyaların xarici təzahürü mimika və pantomimika vasitəsi ilə olur. Uşaqların emosional cəhətdən yaxşı inkişaf etməsi üçün bir çox üsullar var. Bunlardan birinə nəzər salaq. Musiqi sədaları altında uşaqların mimika və pantomimika vasitəsi ilə emosional sahənin inkişaf etdirilməsi üsulu. Bu iş üç mərhələyə bölünür: *Birinci mərhələ-* kiçik yaşlı (3-4) uşaqlarla aparılır. Mimika və emosiyaların inkişaf etdirilməsi oyun fəaliyyəti, müxtəlif hərəkətlər və obrazlar vasitəsi ilə aparılır. *İkinci mərhələ* - orta yaşlı (4-5) uşaqlarla aparılır. Bu zaman “emosional lüğətinin” zənginləşdirilməsi, piktoqramma maskaları, rənglər, mimika və pantomimika vasitəsilə ilə uşaqlarda emosianal sahəni inkişaf etdirmək olar.

*Üçüncü mərhələ* - yuxarı yaşlı (5-7) uşaqlarla aparılır. Bu zaman emosiyaların xarici təzahürlərünü inkişaf etdirmək üçün plastilin etüdlərdən istifadə edərək uşaqların emosional cəhətdən özünü birüzə verməsinə imkan yaradırlar.

Uşaqlarda emosional sahənin sistemli inkişaf etdirilməsi üçün K.İzardın fundamental emosiyalarına əsaslanan təsnifatı əsas götürülmüşdür. K.İzardın göstərdiyi əsas emosiyalar bunlar idi: *maraq, sevinc, təəccüb, dərd, qəzəb, ikrah, istehza, utancaqlıq, günah.* Uşaqlarda emosional sferanın inkişaf etdirilməsi zamanı onların yaşına uyğun olan nağıllar, oyunlar, maraqlı tapşırıqlar, ekspressiv özünü birüzə vermə metodlarından istifadə etmək olar.

Uşaqlarda emosional ekspressiya - müxtəlif oyunlar misal üçün heyvanların həyat şəraitini, onların görkəmini, səslərini, davranışlarını təzahür etdirən oyunlardan istifadə edərək inkişafına nail olmaq olar. Uşaqlarla aparılan oyunlar-konkret, köməkedici və yönəldici xarakter kəsb edə bilər. Bütün keçirilən oyunların musiqi sədaları altında icra edilməsi daha effektli nəticə verir. Oyun fəaliyyətinə uyğun seçilmiş musiqi uşağın oynadığı obrazın daxilinə girmək və eyni zamanda onun emosiyalarını mimika və pantomimika vasitəsi ilə yaşamaq imkanı verir.

Kiçik yaşlı (3-4) uşaqlara oyun zamanı müəyyən bir qəhrəmanın müxtəlif emosional durumundakı vəziyyətini əks etdirən şəkillər təqdim olunur və o, musiqinin müşayiəti ilə obrazların emosional vəziyyətlərini tapmağa çalışır.

Orta məktəbəqədər yaşlı (4-5) uşaqlar isə “emosional lüğətlərini” zənginləşdirmək üçün oyun zamanı müxtəlif əhval-ruhiyyə, emosional vəziyyət (kədər, dərd, qor- xaqlıq, məşğulluq və s) əks etdirən yeni situasiyalarla tanış olurlar. Böyük məktəbəqədər yaşlı (5-7) uşaqlar isə oyun fəaliyyətində onlara verilən xüsusi emosionallıq tələb edən rolları ifadə edir və plastilindən müəyyən fiqurlar hazırlayırlar. Bu zaman onlar oynadığı və ya düzəltdiyi obrazların adından danışaraq özlərini emosional cəhətdən ifadə edirlər. Uşaqlar oyun fəaliyyəti zamanı qəhrəmanın daxili emosional aləmini yaxşı ifadə edə bilirlər.

Çoxsaylı tədqiqatlar bir daha təsdir edir ki, uşaqlıqda alınan qeyri-adekvat emosinal təcrübə uşağın ümumi emosional inkişafında əks etdirilir. Bu da "affektiv sistemin" inkişaf

etməməsinə, ətrafdakılarla qarşılıqlı münasibətlərin pozulmasına aparıb çıxarır. Bundan əlavə o, uşağın şəxsi həyəcanlarında verbalizasiyadakı çətinliklərlə bağlıdır.

Uşaqlarla apardığımız praktik iş təcrübəsi, habelə yaxın böyüklərlə ünsiyyətin pozulması və ya olmaması uşağın şəxsi inkişafını ləngidir, habelə onun qeyri-adekvat davranışının təkrarən yaranmasını şərtləndirir. Belə hallar ailədən kənarda tərbiyə alan uşaqların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı aparılan tədqiqatlarla təsdiq olunmuşdur.

Q.M.Breslav, M.İ.Buyanov, A.R.Varqa göstərirlər ki, yaxın böyükləri ilə emosional əlaqələrinin pozulması daxili diskomforta səbəb olur, onun ətraf aləmə münasibətinin sabitliyi və stabilliyi ilə bağlı hədələrə gətirib çıxarır. Uşağın yaxın böyükləri və həmyaşıdları ilə uğursuz affektiv qarşılıqlı münasibətləri və ya ətrafdakılarla emosional ünsiyyətdə qüsurlar şəxsiyyətin formalaşması üçün təhlükə yaradır. Emosional uğursuzluq uşağın psixi inkişafını çətinləşdirir: ətrafdakılarla əlaqə yaratmaqda, yeni sosial rolları mənimsəməkdə, habelə aktiv ünsiyyətin inkişafında bir çox çətinliklər yaradır.

**Məqalənin aktuallığı.** Uşaqların şəxsi və psixi həyatında emosiyaların psixoloji təsiri çox mühümdür. Bu baxımdan məqalə aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatda uşaqlarda emosional sahənin inkişaf etdirilməsi mərhələləri ardıcıllıqla tədqiq edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Qədirov Ə. Ə. Yaş psixologiyası. Bakı: 2002.
2. Seyidov S. İ və Həmzəyev M. Ə. Psixologiya. Bakı: "Nurlan", 2007.
3. Возрастная и педагогическая психология. Хрестоматия. Москва: 2001.
4. Майерс Д. Психология. Москва: 2001.
5.Эльконин Д. Б. Детская психология. Москва: 1986.

**Н. Исазаде**

## Роль эмоции в личной и психической развитии детей
## Резюме

В статье излагается роль эмоции в личной и психической жизни детей. А также хронологически указывается этапы развитии эмоциональной направлении. Исследуется роль музыки в эмоциональном развитии детей.

**S. İsazada**

## Role of the emotions private and psychical development of the child
## Summary

Role played in the private and psychical life of the children emotions is commented. Stages of developing simply of the emotional area are investigated with succession. Role of the music is elucidated in developing from emotional side of the children.